Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili - Azərbaycan dövlətçiliyi müasir mərhələdə**

**Faiq Ələkbərli**
**dosent, fəlsəfə üzrə fəlsəfə doktoru**

# Cəlil Məmmədquluzadənin dünyagörüşündə milli maarifçilik və azərbaycançılıq

III Yazı



***“Əgər bu işləri görürsən, niyə, bəs dinmirsən? Əgər bacarmırsan və acizsən, bəs, niyə sənə “qadir” deyirlər? Bunların hamısı keçəndən sonra axı bir de görüm hardasan? Yerdəmisən? Əgər yerdəsən, – yerin harasındasan? Əgər göydəsən, – göyün harasındasan? Əgər yerini məxfi saxlamaq istəyirsən – niyə? Bunun da səbəbini bilsək nə eybi var? Bir surətdə ki, nə dinirsən, nə danışırsan, nə yerini-yurdunu bildirisən, nə varlığından bir xəbər göndərirsən, nə cisimsən, nə cövhər, nə ərəz – demək, nə yerdəsən, nə göydə, nə adilsən, nə də zalım, nə böyüksən, nə kiçik, nə yaxşısan, nə pis – dəxi bir yolluq degilən: “İnsanlar məndən əl götürünüz. Mən yoxam, yoxam, yoxam!”. 14 C.Məmmədquluzadənin bütün bu fikirlərini haqlı olaraq materializmə yozan prof. İzzət Rüstəmov yazır: “Heç şübhəsiz ki, Cəlil Məmmədquluzadənin ateist irsi Azərbaycan ictimai-fəlsəfi fikrinin inkişafında, intibahında çox mühüm rol oynamışdır”***

***Cəlil Məmmədquluzadə hesab edirdi ki, imama təziyə saxlayanlar, “Ya Əli, Ya Hüseyn!” deyə-deyə nərə çəkib Aşura günü baş yaranların xeyli hissəsi uşaqlar və yeniyetmələrdir. Onları yoldan çıxaranlar isə hacılar, mollalar, mərsiyəxanlar və başqlarıdır. Halbuki yeniyetmələri və gəncləri yoldan çıxaran din xadimlərinin özləri bu mərasimi kənardan izləyir və göstəriş verməklə kifayətlənirlər. Yəni həmin hacılar və mollalar imam yolunda nə başlarını yarır, nə də qanlarını tökürlər. Çünki Məmmədquluzadənin təbrincə desək “əgər bunların bir nəfərinin imama doğrudan ürəyi yanırsa, onların hamısının babalı mənim boynuma olsun”.***

“Orucu batil eləyən şeylər” və s.) ifadə etmişdir. Məmmədquluzadəyə görə bir çox müsəlmanlar sözdə oruc tutur, əslində isə ona əməl etmirlər.

Daha sonra da orucu batil edən şeylərin qəzet, ruznamə oxumaqmı, yoxsa axundların yalan danışması, şəriətə əməl etməməsi ilə bağlı məsələləri qoyur.

“Hansı elmlər lazım?” feleytonunda da İslam dininə qarşı olam mənfi mövqeyini gizlətməyən Məmmdəquluzadəyə görə, Ə.Axundoğlunun dini elmlərin vacibliyi, mənəviyyatın maddiyyatdan üstünlüyü ilə bağlı mülahizələri müsəlman xalqlarına yaxşı heç nə vəd etmir. 4 O, “Axund ilə keşişin vəzi” məqaləsində bir daha göstərir ki, türklər (Azərbaycan) ermənilərlə müqayisədə çox geri qalıblar. Belə ki, erməni millətinin dünyada üç sevgili balasından, yəni “vətən”, “millət” və “dil”dən bəhs etdiyi halda, 5 axund isə cinlərdən, quleybanlardan danışır. Bununla da Məmmədquluzadə rus ideoloqlarının dili ilə “müsəlmanların adam və abrazovannı olmaları üçün”, “vəhşi müsəlmanların bədəvi adətlərini qaldırıb, onların yerinə bizim gözəl və mədəni rus adətləri”nin öyrənilməsindən bəhs edir.

Sovet Rusiyası işğalından öncə dinə münasibətdə müəyyən qədər ifratçılığı ilə seçilən C.Məmmədquluzadə Sovetlər Birliyi dönəmində də eyni müddəalarını bu dəfə açıq şəkildə müdafiə etmişdi. C.Məmmədquluzadə bəzi yazılarında, o cümlədən “Xatiratım” da etiraf edirdi ki, “Molla Nəsrəddin” ilk gündən qarşısına əsas məqsəd kimi yalnız dini mövhumatın, dini xurafatın deyil, bütövlükdə “din, məzhəb, şəriət, etiqad, iman, cənnət, cəhənnəm, müctəhid, molla, keşiş, xaxam, mürid, habelə bütün bu qism sözlər gərək insanlar arasından götürülüb lüğətlərdən, kitablardan, yazılardan tamamilə silinib tullansınlar! Məscidlər, kəlisalar, sinaqoqlar, təkyələr, ibadətgahlar, pirlər, ziyarətgahlar, məhfillər, əza yerləri tamamilə sökülüb, dağıdılıb maarif və mədəniyyət evlərinə döndərilsinlər”.

Bu dövrdə C.Məmmədquluzadənin M.F.Axundzadəyə həsr etdiyi məqaləsi də göstərir ki, o bütövlükdə dinləri, o cümlədən İslamı və Allahı inkar etmişdi: “gBizim məqsədimiz budur ki, biz allahın dərgahından qovulanlar, bari Mirzə Fətəlinin allahsızlığı ilə təsəlli tapaq və bəlkə də, hələ buna iftixar edək”.8 O, əlavə edirdi ki, qiyamət günü, cəhənnəm və cənnətlə bağlı deyilənlər inandırıcı deyil, çünki ustadı Mirzə Fətəli demişkən torpağa getdin, qayıtmaq yoxdur.

Mütəfəkkir artıq Sovetlər Birliyi dövründə kommunistlərin Allahın varlığını inkar edən ilk qüvvə kimi göstərilməsinin səhv olduğunu da yazırdı. Xüsusilə, onun bu dövrdə Darvininin təlimi barədə söylədiyi fikirləri materalizmə meyilliyinə bir sübutdur: O yazır: “Xudavəndi aləmin varlığına şəkk gətirmək barəsində biçarə kommunistlərin adı o qədər “bədnam” olubdur ki, indi bir kəsə söyləsən ki, hələ kommunistlərdən çox qabaq zamanlarda cənab Allahı dananlar var imiş; çoxları ola bilər ki, bu sözlərə inanmaya, amma əgər tarix kitablarını bir yüngülcə varaqlasaq, baxıb görəcəyik ki, Allahın varlığını inkar etmək üstə çox alimlər və filosoflar edam cəzası ilə cəzalanıblar.

***Doğrudur, öz fənni kəşfiyyatı ilə ilahiyyata ən güclü zərbə yetirən Darvin öz əcəli ilə bu dünyadan getdi, amma o qədər ki, onun və onun müridlərinin başına müsibətlər gəlibdir, - onu burada yazmaq ilə qurtarmaq olmazg Biz əgər duraq Darvin məsləkini tamamilə qəbul edək, onda da biz gərək cəmi kitabimüqəddəsini də və o cümlədən Quranı da büküb qoyaq kənara və bunların ehkamının cümləsini bir əfsanə hesab edək”.***

Ona görə, Allahın varlığını danmaq kommunistlərlə başlamır və onun tarixi qədimlərə gedib çıxır. Belə ki, bir çox peyğəmbərlər, o cümlədən Hz. Musa Allahın yeri və məkanı ilə bağlı suala cavab verərəkən Onun göydə olduğunu iddia etməsinə cavab olaraq Misirin Fironu ən uca qəsr tikdirmiş, daha sonra da xalqa demişdir ki, Musa yalançıdır çünki göydə Allah yoxdur. Məmmədquluzadə yazırdı: “Demək, Allahın varlığını inkar etmək söhbəti təzə deyil, qədim söhbətdir; bu söhbət haman söhbətdir ki, Musanın möcüzələrinin (yəni indiki istilahda fırıldaqlarının) qabağında Firon onun bicliyini duyub, məcbur olub cavab verməyə ki, Allah yoxdur”.10 Onun fikrincə, hər dövrdə bir insan ortaya atılıb özünü Allah tərəfindən göndərilmiş peyğəmbər elan edərək əsilsiz, məntiqsiz dəlillərlə dünyanı yaradan bir Allah vardır dediyi halda, ancaq avam camaatın içindən hər əsrdə də gözüaçıq şəxslər meydana çıxıb həmin peyğəmbərləri də, onları göndərən Allahın varlığını da qəbul etməyiblər.

Qabaqcıl Maarif xadimi, dos. Müstəqil Ağayev hesab edir ki, bununla da Mirzə Cəlil M.F.Axundzadənin Allah haqqında düşüncələrini, dilinə gətirdiklərini təsdiq edir, ruhanilərin özlərinin də bu əqidədə olduqlarını, ikiüzlülük edərək avam camaata düşündüklərinin əksini söylədiklərini göstərir: “O (C.Məmmədquluzadə - F.Ə.), insanla birlikdə, bir yerdə bütün canlıların Allah tərəfindən yaradıldığını təkid edən Quran ayələrinə inanmır, peyğəmbərlərin Allah elçiləri olmalarını qəbul etmir və deyir ki, onlar riyasət məqsədilə meydana atılmış nadürüst adamlardır”.

***“Dinsizlik” adlı məqaləsində də Allahın varlığını şübhə altına alan Məmmədquluzadəyə görə, fransız filosofu Holbax haqlı olaraq Allaha istinad edilən sifətləri maddədə görmüş, yəni Allah varsa onu da, gözlə görünən kainatın içində, bəlkə də kainatın özü hesab etmişdir. Bu baxımdan o, da Holbax kimi Allahın rəhimlilik, adillik, hər şey görmək və bilmək kimi sifətlərini şübhə altına almışdır.***

Daha doğrusu, onun bu şübhələri əslində Allahın varlığını inkar etməkdən başqa bir şey deyildi. Çünki çox keçmədən o aşkar şəkildə yazırdı ki, əgər Allah var olsa idi, baş verən haqsızlıqların qarşısını alar, ən azı ona tapınan mömінləri fəlakətli işlərdən qoruyardı. O, yazırdı: “Əgər bu işləri görürsən, niyə, bəs dinmirsən? Əgər bacarmırsan və acizsən, bəs, niyə sənə “qadir” deyirlər? Bunların hamısı keçəndən sonra axı bir de görüm hardasan? Yerdəmisən? Əgər yerdəsən, – yerin harasındasan? Əgər göydəsən, – göyün harasındasan? Əgər yerini məxfi saxlamaq istəyirsən – niyə? Bunun da səbəbini bilsək nə eybi var? Bir surətdə ki, nə dinirsən, nə danışırsan, nə yerini-yurdunu bildirisən, nə varlığından bir xəbər göndərirsən, nə cisimsən, nə cövhər, nə ərəz – demək, nə yerdəsən, nə göydə, nə adilsən, nə də zalım, nə böyüksən, nə kiçik, nə yaxşısan, nə pis – dəxi bir yolluq degilən: “İnsanlar məndən əl götürünüz. Mən yoxam, yoxam, yoxam!”. 14 C.Məmmədquluzadənin bütün bu fikirlərini haqlı olaraq materializmə yozan prof. İzzət Rüstəmov yazır: “Heç şübhəsiz ki, Cəlil Məmmədquluzadənin ateist irsi Azərbaycan ictimai-fəlsəfi fikrinin inkişafında, intibahında çox mühüm rol oynamışdır”.

Əlbəttə, İ.Rüstəmovun müsbət mənada ifadə etdiyi Məmmədquluzadə irsinin müsbət tərəfləri ilə yanaşı, mənfi cəhətlərinin olmasını da unutmaq olmaz. Məsələn, “Molla Nəsrəddin” jurnalının SSRİ dövründəki saylarının (1925, 7 fevral, N6) birinin üz qabağında Marksın “Kapital” əsəri ilə abidəsini, onun yanında Molla Bağırı vermişdir. Marksın abidəsinin altında: Bütün ölkələrin yoxsulları birləşiniz! Molla Bağır Məclisinin altında: Bütün Şərqin dindarları birləşiniz!

***Daha sonra Məmmədquluzadə M.B.Məclisinin dilindən yazırdı: Ay axmaq Şərq camaatı! Nə tökülmüşsünüz bu kişinin dalınca. Onun yazdığı bir Kapitaldır. Amma mən M.B.Məclisi yüzlərlə kitab yazmışam.***

***Şübhəsiz, Məmmədquluzadənin bu müqayisəsi yanlış idi. Çünki İslam dininin əsas kitabı Quran idi, M.B.Məclisinin yüzlərlə kitabları yox.***

***Göründüyü kimi Cəlil Məmmədquluzadənin varlığa, o cümlədən dinə münasibəti daha çox materialist xarakter daşımış, o yalnız dinləri deyil, Yaradanın varlığını da inkar etmişdir.***

***Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunur***